# Ümumrayon kitab sərgisi



**Qəbələ kitabxanasında Konstitusiya günü münasibətilə rayon kitab sərgisi keçirildi.**

***Sərgidə geniş oxucu kütləsilə yanaşı idarə və müəssisələrə də dəvətnamələr paylanmış və onların iştirakı təmin olunmuşdu. Üç gün davam edən kitab sərgisi üç hissədən ibarət idi.***

Sərginin birinci hissəsində Konstitusiyaya aid kitablar əks olunmuş, ikinci hissəsində ölkə prezidenti cənab İ.Əliyevin sərəncamına əsasən kitabxanaya gələn hədiyyə kitablardan, üçüncü hissə isə ABŞ-ın Azərbaycandakı səfirliyi tərəfindən hədiyyə olunan kitablardan ibarət idi.

Tədbiri MKS-nin direktoru R.Mirzəyev açaraq qeyd etmişdir ki, bugünkü kitab sərgimiz Konstitusiya gününə həsr olunmuşdur. Sərginin məqsədi Konstitusiya gününü bir daha xatırlamaq, yad etmək, rayonun əhalisini, geniş oxucu kütlələrini kitabxanaya gələn hədiyyə kitablarla tanış etmək, oxucuların kitabxanaya olan maraqlarını daha da artırmaqdır. R.Mirzəyev daha sonra demişdir ki, ölkə prezidenti İ.Əliyev cənabları digər sahələrə olduğu kimi mədəniyyət sahəsinə də həmişə ciddi fikir vermişdir. Bununla əlaqədar bir sıra fərman və sərəncamlar imzalanmışdır: «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlər həyata keçirilməsi haqqında» 12 yanvar 2004-cü il , «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» 20 aprel 2007-ci il, «Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr etdirilməsi haqqında» 24 avqust 2007-ci il və s. sərəncamları bu qəbildəndir. 12 noyabr 2004-cü il sərəncamına əsasən 2005-ci ildən ölkə kitabxanaları latın qrafikalı ədəbiyyatla kütləvi şəkildə təmin olunmağa başladı. Bizim MKS də 2005-ci ildən başlayaraq prezidentin hədiyyə kitablarını almış, onları kitabxana qaydasında işləyərək rayonun kitabxanalarına göndərmiş, oxucuların istifadəsinə vermişdir.

Qəbələ rayon MKS 2005-ci ildə həmin hədiyyə kitablardan 18916 nüsxə, 2006-cı ildə 16818 nüsxə, 2007-ci ildə isə 14194 nüsxə almışdır. Ümumilikdə isə 49928 nüsxə prezidentin hədiyyə kitabları alınmışdır.

2005-ci ildə ABŞ səfirliyinin yardımı ilə rayon mərkəzi kitabxanasında Regional Kitabxana Məlumat Mərkəzi açılmışdır. Səfirlik bu mərkəzə beş kompyuter vermişdir. Rayon əhalisi bu kompyuterlərdən pulsuz istifadə etməklə kompyuter sirlərinə yiyələnə bilər. Səfirlik həmçinin kitabxanaya 600 nüsxə kitab hədiyyə etmişdir. Həmin kitablar Azərbaycan və ingilis dillərindədir.

Tədbirdə Rayon İcra Hakimiyyətindən, İdman və Gənclər təşkilatından, rayon prokurorluğundan, sığorta təşkilatından, incəsənət məktəbindən, redaksiyadan və digər təşkilatlardan nümayəndələr də iştirak edirdi. Rayon İcra Hakimiyyətinin nümayəndəsi S.Bayramova qeyd etdi: "Rayon MKS-nin 12 noyabr Konstitusiya günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə latın qrafikasında çap edilmiş və kitabxanaya hədiyyə verilmiş kitabların sərgisi ilə tanışlıq məndə çox böyük əhval-ruhiyyə yaratdı. Belə sərgilərin təşkili rayon əhalisinin maariflənməsi üçün böyük əhəmiyyət kəsb edir. Son günlər kitabxana öz fəaliyyətini artırıb. Rayon rəhbərliyi adından sizə təşəkkür edirəm."

Prokurorluğun müstəntiqi Ə.Aslanov qeyd etdi ki, doğrudan da prezidentimizin son dövrlər dövlətimizin ictimai-siyasi həyatının bütün sahələrinə diqqət və qayğısı danılmazdır. Bugünkü tədbir də prezidentimizin bu diqqətinin bariz nümunəsidir. İşinizdə sizə uğurlar arzulayırıq.

***Kitab zaman dalğalarında səyahət edən və qiymətli yükünü səliqə ilə nəsillərdən-nəsillərə aparan düşüncə gəmisidir.*** (F.Bekon)

***Bu gəmini idarə etmək biz kitabxana işçilərinin öhdəsinə düşür.***

**S.BABAYEVA**
**MKS-nin baş biblioqrafı**